

Fəzail İsmayıl Böyükkişi

***Bu yazını Azərbaycanın əməkdar rəssamı Rais Azər oğlu Rəsulzadənin anadan olmasının 75 illiyinə həsr edirəm***

# Məhəmməd Əmin yadigarı...




***Rais bəy şairliyi rəssamlığın ekiz qardaşı adlandıraraq belə deyir: "Şairlərə şeir yazanda təb (ilham) gəldiyi kimi, rəssamlar da rəsm əsərlərini yaradanda onlara təb gəlir. İntəhası şairlərdən fərqli olaraq rəssamlar onlara gələn təblə yaradacağı əsəri əvvəlcədən olduğu kimi təsəvvür edir və sonra bu təsəvvürü xəyalından canlandıraraq həmin rəsm əsərini yaradır"***

Rais bəyin "Yasəmən" rəsminə baxıb bu rəsmdə özümü (öz taleyimi) gördüyümdən bu rəsmin önündə bədahətən bu bayatını dedim:

**Tanrım vermə yasa məni,**
**Ya yasəmən, ya səməni.**
**Vətənim bütöv olmasa,**
**Gəl çatdırma yasa məni.**

Rais bəyin sayı mini haqlayan hər sənəti ölməz sənət əsəri olduğundan bu əsərlər haqqında düşündüklərimi qələmə alsam, bu yazdıqlarım cild-cild kitablara sığmaz. Təkcə Rais bəyin "Xəzərdə" rəsmi haqqında bir tamaşaçı kimi öz təəssüratlarımı qələmə alsam, yenə də bu haqda söylədiyim sözlər bitib-tükənməz bir xəzinəyə bənzəyər. Doğrudan da, həmin rəsmi seyr edən tamaşaçıya ilk baxışda çox qəribə gəlir ki, bizim mavi gözlü Xəzərimiz niyə tünd qara rəngdə görünərək, matəm libasına bürünüb? Amma bu rəsmi dərin düşüncəli şair, filosof, mütəfəkkir və hər hansı ziyalı seyr edərsə, dərhal anlayar ki, Azərbaycanın qara qızılı olan nefti həm də onun yerli sakinləri olan Oğuz türklərinin qara günü, qara bəxtidir. Onlar öz sərvətləri olan qara qızılına neftinə sahib durmaq istəyəndə, xarici qəsbkarlar bu istəyinə görə onların başına olmazın müsibətlər açmışlar, necə deyərlər bu xalqın gününü göy əskiyə bürümüşlər və nəticədə "Gülüstan" və "Türkmənçay" müqaviləsi ilə mənfur rus çarları I Aleksandr və I Nikolay I Pyotrun (dəli Petronun) vəsiyyətinə əməl edərək Azərbaycanın Araz çayı boyunca Güney və Quzey Azərbaycanına bölərək Quzey Azərbaycanının ərazisinə sahib duraraq, onun əhalisini öz köləsi etmiş, Quzey Azərbaycanının ərazisini və əhalisini hələlik Qacar hökmdarlarının ixtiyarına vermişdir.

Beləliklə Quzey Azərbaycanının bütün yeraltı və yerüstü sərvətləri rusların ixtiyarında olmuşdur. Ondan dəfələrlə böyük olan Güney Azərbaycanının sərvətləri isə həm rus çarlığının, həm də İngilis ağalarının (eyni zamanda bu dövrdə Güney Azərbaycanının sərvətlərindən əllərinə fürsət düşdükcə fransız, alman, isveç ağaları da bəhrələnmişlər. Neçə ki, Qacar şahları Fətəli şah Qacardan tutmuş sonuncu Əhməd şah Qacara qədər olan bütün şahlar ingilis krallığının sözü ilə oturub-dururdusa, onlar Qacarlıq taxt-tacının sahibləri idilər. Elə ki, sonuncu Qacar şahı Əhməd şaha ingilis krallığı göstəriş verdi ki, Quzey Azərbaycanının sosialist Azərbaycanına çevrilməsi ilə barışmamalısan, ona görə də öz ordunu Quzey Azərbaycanına yeridərək oranın əhalisini öz rəiyyətinə çevirməlisən, ərazisini də öz ərazinə qataraq yenidən bütöv Azərbaycana çevrilməlisən. Əhməd şah ona edilən bu göstərişlə razılaşmayaraq ingilis kralının elçisinə öz fikrini belə bildirmişdir: "Hərgah, ingilis kralı bu müharibədə mənim əsgərlərimi ən müasir silahlarla, eyni zamanda onları paltar və yeməklə təmin etsə belə mən onun əmrinə əməl edərək öz xalqımı öz əsgərlərimin əli ilə qətlə yetirmərəm. Sözün qısası ingilis kralının bu əmrini yerinə yetirərək bütöv Azərbaycan ərazisinə sahib olan Qacar şahı olmaqdansa, mən İsveçrədə göy-göyərti satmağı və yaxud da acından ölməyi elə şahlıqdan üstün tuturam. Beləliklə, ingilis krallığı onun əmrini yerinə yetirmədiyinə görə sonuncu türk şahlarından olan Əhməd şah Qacarı taxtdan saldı və onun əvəzinə vaxtilə rus kazaklarının atına baxan mehtəri – yəni rus nökərini pəhləvi Rzanı Əhməd şahın yerinə şah seçib şahlıq taxtında oturdu. Bütün bunları bilən ziyalılar matəm libasına bürünən "Xəzərdə" rəsminə baxanda onun xəyalından bu günə qədər davam etməkdə olan, türklərə qarşı yeridilən mənfur siyasətə (türklərə öz dilində danışmağı qadağan etməkdən tutmuş, öz dilində ibtidai, orta, ali təhsil almağın qadağan edilməsinə qədər olan qadağalar və dövlət idarələrində türk dilində danışmağa, sənədləşdirmə aparmağa icazə verilməməsinə qədər) dair səhnələr gəlib keçib.

***Rais bəyin belə qəmli rəsmləri ilə bərabər insanlara ümid verən, onları nikbin olmağa çağıran rəsm əsərləri də olduqca çoxdur. Əslində Azərbaycan ərazisi bütöv, əhalisi azad olarsa dövləti güclü və qüdrətli olarsa, Rais bəyin demək olar ki, bütün əsərləri insanlarda nikbin ruh aşılayan Azərbaycan gözəlliklərinin tərənnümündən ibarət əsərlər olar. Rais bəyin elə rəsm əsərləri də vardır ki, bu rəsm əsərlərini hələ sərgiyə gələn tamaşaçılar anlaya bilmir. Elə əsl rəssamlıq da bu deməkdir. Rais bəy şairliyi rəssamlığın ekiz qardaşı adlandıraraq belə deyir: 'Şairlərə şeir yazanda təb (ilham) gəldiyi kimi, rəssamlar da rəsm əsərlərini yaradanda onlara təb gəlir. İntəhası şairlərdən fərqli olaraq rəssamlar onlara gələn təblə yaradacağı əsəri əvvəlcədən olduğu kimi təsəvvür edir və sonra bu təsəvvürü xəyalından canlandıraraq həmin rəsm əsərini yaradır.*** Məhz Rais bəyin "Xəzərdə" əsəri də onun tamaşaçılar tərəfindən tamanlanmayan rəsm əsərlərindəndir. Belə əsərlərinin tamaşaçılar tərəfindən anlanmamasına görə Rais bəy onları qınamır. Çünki bu tamaşaçıların əksəriyyəti ömrünün çox hissəsini sovüt dövründə yaşamış yaşlı nəslə mənsub tamaşaçılardır. Rais bəyə görə rəssamlıq və şairlik leysanla dolu elə buludlara oxşayır ki, onlar öz əsərlərini yazarkən sanki bu buludlar öz leysan yağışlarını birdən yağdıraraq təbiəti cana gətirdiyi kimi onlar da öz kamil əsərlərini yaradırlar. Nə gözəl fikirdir bu fikriniz Rais bəy: "Nə xoşbəxt insanlardır elə şairlər, elə rəssamlar ki, öz əsərlərini tanrının hökmüylə leysan kimi yağaraq birdən-birə yaradırlar. Rais bəylə ilk dəfə tanış olduğum vaxtlarda tamamilə özümü öz Vətənində tənha və kimsəsiz bilərək "Mən Vətəndə Vətənsizəm, ölləndə də kəfənsizəm" və yaxud da "Təklənmisən səndə mən tək, bir Allah da təkdi Vətən" ruhunda qəmli şeirlər yazırdım.

Amma Rais bəy tanışlıqdan sonra onun mübarizələrlə dolu həyat salnamələrini dinlədikdən sonra yenidən təbimi məni nikbin ruhda şeirlər yazmağa köklədim. Yenidən coşqun təblə yazıb-yaratmağa bütün şeirlərimi Vətənin birliyi uğrunda nərələr çəkməyə və Vətənimin bütün Oğuz türklərini də bu ruhda mübarizəyə çağırdım.

Atası Azər Əmin oğlundan, Oqtay Sadıqzadədən Mikayıl Abdullayevdən, Səttar Bəhlulzadədən onlarla bir sırada duran, dərs alan rəssamlığın sirlərini öyrənən Azərbaycanın görkəmli rəssamı Rais Azər oğlunun bu gün ömrünün müdriklik çağlarında həm də artıq qüdrətli rəssamlar olduqlarını sübut edən tələbələri Nəvai Mətinlə, Vüqar Ələkbərovla, Əli Şəmsiyevlə, rəhmətlik Vüqar Haqverdiyevlə və digərlərilə fəxr etməyə haqqı var.

Ona görə də qanında, genində Bütöv Azərbaycanı yaşadan bütün yaradıcılığının əsasını Bütöv Azərbaycan eşqiylə yazdığı şeirlər təşkil edən bir şair kimi, amalı amacı "Bütöv Azərbaycan Turanın parlaq Günəşidir", "Xəyalımda yanan ağ işıqlar reallığa çevriləmkdədir" başlığıyla silsilə məqalələr yazan bir publisist kimi tariximizin bu mübarək günlərində (daha dəqiq desəm miladi tarixiylə XXI əsrin 21-ci ilinin noyabr ayının 1-də) öz qüdrətli fırçasıyla Bütöv Azərbaycan gözəlliklərini tərcümanı olmağı, sevgili millətinin müqəddəs məmləkətinə sahib durmağını görməyi və Məhəmməd Əmin bəyin fədakar, cəfakeş gözlərilə od götürən səbirli, təmkinli, dözümlü nəvəsinə, layiqli varisinə Rais Azər oğluna möhkəm can sağlığı, uzun ömür, ailə səadəti, övlad fərəhi, nəvə sevinci, yaradıcılıq uğurları, bütöv Azərbaycanın qüdrətli dövlətinin fəxri vətəndaşı olmağı, məslək dostlarıyla birgə ürəkdən, könüldən deyib-gülmək və daha fərəhli günlər yaşamalarını arzulayıram!!!

***Amin, Rəbbülaləmin...***
***SON***

***Rais bəyin belə qəmli rəsmləri ilə bərabər insanlara ümid verən, onları nikbin olmağa çağıran rəsm əsərləri də olduqca çoxdur. Əslində Azərbaycan ərazisi bütöv, əhalisi azad olarsa dövləti güclü və qüdrətli olarsa, Rais bəyin demək olar ki, bütün əsərləri insanlarda nikbin ruh aşılayan Azərbaycan gözəlliklərinin tərənnümündən ibarət əsərlər olar. Rais bəyin elə rəsm əsərləri də vardır ki, bu rəsm əsərlərini hələ sərgiyə gələn tamaşaçılar anlaya bilmir. Elə əsl rəssamlıq da bu deməkdir.***